**UDC:** 32.; 323.
**LBC:** 63.3(2)6-6; 63.3 (2)64; 63.3(5 e)64
**MJ №** 413
10.33864/2617-751X.2025.v8.i8.380-399

# INTRODUCTION TO ANIMAL ETHICS: THE PHILOSOPHICAL APPROACHES OF PETER SINGER AND TOM REGAN

**Asim Ashurov***

**Abstract.** Animal ethics, one of the most important and current fields of contemporary philosophical thought, examines human-animal relations and the moral status of animals. Historically, in Western philosophy, anthropocentric theories have long been more widely accepted, and humans' moral obligations toward animals have been largely overlooked. In the 20th century, however, the development of technology, the transition to industrial animal husbandry, and the involvement of animals in large-scale scientific research worsened their living conditions. These problems made the emergence of animal ethics as a distinct field necessary. By the end of the 20th century, the utilitarian approach of Peter Singer and the deontological approach of Tom Regan laid the theoretical foundations for the renewed discussion of humans' moral obligations toward animals. The aim of our paper is to clarify ethical issues in this field by presenting the main philosophical arguments of animal ethics.

**Keywords:** animal ethics, Peter Singer, Tom Regan, speciesism, marginal cases, inherent value, subject-of-a-life

---

* Doctoral student at the Department of Ethics, Institute of Philosophy and Sociology, Azerbaijan National Academy of Sciences; Baku, Azerbaijan
E-mail: asimasurov111@gmail.com
https://orcid.org/0009-0001-7400-5459

**To cite this article:** Ashurov, A. [2025]. INTRODUCTION TO ANIMAL ETHICS: THE PHILOSOPHICAL APPROACHES OF PETER SINGER AND TOM REGAN. *"Metafizika" journal, 8*(8), pp.380-399.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i8.380-399

***Article history:***
*Received: 10.10.2025*
*Accepted: 13.11.2025*
*Published: 01.12.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

**УДК:** 32.; 323.
**ББК:** 63.3(2)6-6; 63.3 (2)64; 63.3(5 е)64
**MJ №** 413
10.33864/2617-751X.2025.v8.i8.380-399

# ВВЕДЕНИЕ В ЭТИКУ ЖИВОТНЫХ: ФИЛОСОФСКИЕ ПОДХОДЫ ПИТЕРА СИНГЕРА И ТОМА РИГАНА

**Асим Ашуров***

**Абстракт.** Этика животных, одна из наиболее важных и актуальных областей современной философской мысли, изучает отношения человека и животных, а также моральный статус животных. Исторически в западной философии долгое время преобладали антропоцентрические теории, и моральные обязательства человека по отношению к животным в значительной степени игнорировались. В XX веке, однако, развитие технологий, переход к промышленному животноводству и привлечение животных к масштабным научным исследованиям ухудшили их условия жизни. Эти проблемы сделали необходимым появление этики животных как отдельной области. К концу XX века утилитаристский подход Питера Сингера и деонтологический подход Тома Регана заложили теоретические основы для возобновленной дискуссии о моральных обязательствах человека по отношению к животным. Цель нашей работы- разъяснить этические вопросы в этой области, представив основные философские аргументы этики животных.

**Ключевые слова:** этика животных, Питер Сингер, Том Риган, спесишизм, видовой шовинизм, предельные случаи, внутренняя ценность, субъект жизни

---

* Аспирант, отдел Этики, Институт философии и социологии, Национальная Академия Наук Азербайджана; Баку, Азербайджан
E-mail: asimasurov111@gmail.com
https://orcid.org/0009-0001-7400-5459

**Цитировать статью:** Ашуров, А. [2025]. ВВЕДЕНИЕ В ЭТИКУ ЖИВОТНЫХ: ФИЛОСОФСКИЕ ПОДХОДЫ ПИТЕРА СИНГЕРА И ТОМА РИГАНА. *Журнал «Metafizika»*, *8*(8), с.380-399.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i8.380-399

***История статьи:***
*Статья поступила в редакцию: 10.10.2025*
*Отправлена на доработку: 13.11.2025*
*Принята для печати: 01.12.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

**UOT:** 32.; 323.
**KBT:** 63.3(2)6-6
**MJ №** 413
10.33864/2617-751X.2025.v8.i8.380-399

# HEYVAN ETİKASINA GİRİŞ: PETER SİNGER VƏ TOM REQANIN FƏLSƏFİ YANAŞMALARI

**Asim Aşurov***

**Abstrakt.** Müasir fəlsəfi düşüncənin ən mühüm və aktual sahələrindən biri olan heyvan etikası insan heyvan münasibətlərini və heyvanların mənəvi statusu məsələsini tədqiq edir. Tarixi baxımdan qərb fəlsəfəsində uzun müddət antroposentrik nəzəriyyələr daha çox qəbul olunmuş və insanların heyvanlara qarşı mənəvi öhdəçiliyi gözardı edilmişdir. XX əsrdə isə texnologiyanın inkişafı, sənayə heyvandarlığına keçid, heyvanların kütləvi halda elmi tədqiqatlara cəlb edilməsi kimi məsələlər onların həyat şəraitinin daha da pisləşməsinə səbəb oldu. Bu problemlər isə heyvan etikası sahəsinin bir istiqamət kimi ortaya çıxmasını zəruri etdi. XX əsrin sonlarında isə iki önəmli filosofun, Peter Singerin utilitarist yanaşması ilə Tom Reqanın deontoloji yanaşması insanların heyvanlara qarşı əxlaqi öhdəliklərinin yenidən müzakirəsinin nəzəri əsaslarını qoydu. Yazımızın məqsədi, bu iki filosofun etik baxışlarına diqqət etməklə heyvan etikasının ümümi mənzərəsini ortaya qoymaqdır.

**Açar sözlər:** heyvan etikası, Peter Singer, Tom Reqan, növçülük, marjinal hallar, daxili dəyər , həyat subyekti

* Azərbaycan Milli Elmlər Akademiyası, Fəlsəfə və Sosiologiya İnstitutu, Etika şöbəsi, Doktorant; Bakı, Azərbaycan
E-mail: asimasurov111@gmail.com
https://orcid.org/0009-0001-7400-5459

**Məqaləyə istinad:** Aşurov, A. [2025]. HEYVAN ETİKASINA GİRİŞ: PETER SİNGER VƏ TOM REQANIN FƏLSƏFİ YANAŞMALARI. *“Metafizika” jurnalı, 8*(8), səh.380-399.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i8.380-399

**Məqalənin tarixçəsi:**
*Məqalə redaksiyaya daxil olmuşdur: 10.10.2025*
*Təkrar işlənməyə göndərilmişdir: 13.11.2025*
*Çapa qəbul edilmişdir: 01.12.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

# 1.Giriş

Fəlsəfənin bir sahəsi olan etika ənənəvi olaraq insanın mənəvi aləmi, onun cəmiyyətdəki əməl və davranışları üzərinə köklənmişdir. Tarix boyu insanlar özlərini əxlaqi refleksiyanın mərkəzinə qoymuş, bütün məsələlərdə antroposentrik mövqe nümayiş etdirməklə heyvanlara əxlaqi münasibətləri diqqət mərkəzinə almamışlar. Lakin, tarixin sonrakı dövrlərində xüsusilədə XX əsrdən başlayaraq etikada insan-heyvan münasibətləri, heyvan rifahı və heyvanların əxlaqi statusu ilə bağlı mövzular önəm kəsb etməyə başladı. XX əsrin sonlarında meydana gələn heyvan etikasının əsas problemləri heyvanların mənəvi statusu (yəni heyvanlar əxlaqi münasibətlərin obyekti olmalıdırlarmı?), onların daxili yoxsa instrumental dəyərə sahib olmaları, insanların maraqları ilə heyvan rifahı arasındakı toqquşma zamanı hansı mövqenin daha üstün qəbul olunması kimi məsələlərdir. Bu dövrdə biotexnologiyanın və sənaye heyvandarlığının sürətlə inkişafı, laboratoriya təcrübələri, ovçuluq və heyvanların əyləncə məqsədilə istismarı kimi məsələlər bu sahəni etik debatların əsas obyekti etdi. Xüsusilədə ənənəvi heyvandarlıqdan sənaye heyvandarlığına keçid və texnologiyanın inkişafı insanların heyvanlara qarşı ədalətsiz davranışını daha üst səviyyəyə qaldırdı. Belə ki, ənənəvi heyvandarlıqda heyvanın sağlam və xoşbəxt olması məhsuldarlıq üçün şərt idi, lakin antibiotiklər, peyvəndlər, havalandırma sistemləri və digər texnoloji vasitələr bizə heyvanları bədbəxt vəziyyətdə saxlamaqla bərabər məhsuldarlığı qorumağa imkan verdi [Rollin, 2006, 287]. Digər tərəfdən, ABŞ-da Milli Səhiyyə İnstitunun yaradılması ilə heyvanlar üzərində aparılan elmi tədqiqatların sürətlə artması oldu. Bu tədqiqatlarda heyvanların xeyrinə heç bir sosial etik qayda və ya qanuni tənzimləmə olmadan onlar insanların xeyri üçün əzab çəkirdilər [Rollin, 2006, 287]. Məhz bu səbəblər heyvan etikasının meydana çıxmasını, heyvanların da etik münasibətlərin iştirakçısı olub olub-olmaması məsələsini zəruri etdi.

Peter Singer, Gary Francione, Tom Reqan və başqa filosoflar heyvanların hiss edən varlıqlar olaraq ağrı hiss etmə qabiliyyətlərinə görə və ya onların daxili dəyərləri olduqlarına görə qida, geyim, nəqliyyat və başqa vasitələr kimi istifadəsinə qarşı çıxdı, bir sözlə heyvanların hər cür istismarını qəbuledilməz hesab etdilər. Etika və bioetikanın bir sahəsi olan heyvan etikası yuxarıda qeyd edilən mövzuları özünün tədqiqat obyekti etməklə bərabər heyvanların əxlaqi statusu varmı, heyvanlar daxili dəyərə malikdir mi, insanların heyvanlara qarşı mənəvi öhdəlikləri varmı və digər bu tip suallara cavab axtarır. Heyvan etikası ayrıca bir fəlsəfi sahə olaraq avstraliyalı filosof Peter Singerin 1975-ci ildə yazdigi “Animal Liberation” kitabının heyvanların mənəvi statusu məsələsini qlobal müzakirəyə çıxarması ilə ortaya çıxdı. Təbii ki, fəlsəfə ve etika tarixində heyvanlarla bağlı müəyyən fikirlər səsləndirilmişdir. Bu fikirlərdən bir çoxu insanların heyvanlar qarşısında mənəvi öhdəliyinin olmadığını vurğulasada

çox az sayda da olsa heyvanlara qarşı insanların davranışlarının etik olmadığını vurğulayan fikirlər də olmuşdur. Əsasən tarix boyu insanların fikri belə olmuşdur ki, heyvanların şüurları, dili, rasionallığı ve nəticədə ruhlari olmadığı üçün onlar insanlar üçün sadəcə bir "instrumental dəyərə" malik canlılar qismində olmuşlar. Nəticədə, bu fikir insanların heyvanlara qarşı heç bir etik məsuliyyəti olmadığı fikrinə gətirib çıxarmışdır. Antik fəlsəfədən başlayaraq sonra dini fəlsəfədə ve hətta daha sonralar kartezian fəlsəfəsində və maarifçilik dövründə bu düşüncə tərzi davam etmişdir. "Qərb intellektual tarixinin demək olar ki, bütün dövrlərində, Plutarx, Şopenhauer və Bentham kimi bəzi təcrid olunmuş mütəfəkkirlərin yazıları istisna olmaqla, qeyri-insan varlıqlara qarşı əxlaqi öhdəliklər barədə demək olar ki, heç bir müzakirə aparılmamışdır" [Rollin, 2006, s.285].

Azərbaycan akademik mühitində heyvan etikası sistemli şəkildə tədqiq olunmayıb. Elmi ədəbiyyat və yazılarda bu mövzu əsasən ekoloji problemlərlə əlaqələndirilir və daha çox heyvanların qorunması, bioloji müxtəlifliyin saxlanılması prizmasından izah olunmuşdur. Daha açıq şəkildə desək ölkəmizdə heyvanların müdafiəsi məsələsi ekoloq alimlərimiz tərəfindən biomüxtəlifliyin qorunması məqsədilə ön plana çəkilmişdir. Yəni ekologiyada daha çox təhlükə altında olan heyvan növlərinin qorunması ekoloji tarazlıq üçün önəm kəsb edir. Heyvan etikasında isə ev heyvanları da daxil olmaqla bir çox heyvan fərdlərinin istismarı və ağrı hiss etməsini maksimum dərəcədə azaltmaq prioritet sayılır. Heyvan etikası sahəsində heyvanların istər qida istehsalında (burada veqanlıq etik mövqe kimi qiymətləndirilir), istər laboratoriya sınaqlarında, istərsə də geyim sənayesində istifadəsi mənəvi cəhətdən qəbuledilməz sayılır. Burada heyvanların daxili dəyəri, etik statusları və haqları fəlsəfi baxımdan nəzərdən keçirilir.

Fikrimizcə, ölkəmizdə də heyvan etikası sahəsində tədqiqatların aparılması vacib məsələdir. Bu zərurətin əsas səbəbi heyvanların da hiss edən varlıqlar olması və buna görə də onlara qarşı qəddar davranışlar minimuma endirilməsi etik məsulliyət kimi qəbul edilməsidir. Bu yanaşma da öz növbəsində ənənəvi insanmərkəzli etikanın yenidən nəzərdən keçirilməsinə və cəmiyyətimizdə etik düşüncənin daha da dərin inkişafına zəmin yaradacaqdır. Bundan əlavə, heyvan etikası müasir fəlsəfi düşüncənin mühüm bir parçasını təşkil edir. Bu sahənin ölkəmizdə inkişaf etdirilməsi yerli akademik mühitin qlobal etik diskursa inteqrasiyasına müsbət təsir göstərəcəkdir.

Biz məqalədə ilk olaraq heyvan etikası ideyalarının tarixi inkişafına diqqət yetiririk. Ardınca məqalədə Peter Singerin utilitarist yanaşması kontekstində onun növçülük anlayışı təhlil edilir. Daha sonra isə Tom Reqanın mərkəzi ideyaları "həyat subyekti" (subject-of-a-life) anlayışı və daxili dəyər (inherent value) prinsipi olan deontoloji yanaşması müzakirə edilir.

## 2.Heyvan etikasının tarixi

Bəşəriyyətin tarixinə nəzər salsaq görərik ki, heyvanların daim insan həyatında rolu olub. Tarixin çox qədim dövrlərində heyvanlar insanlar üçün ov obyekti olmuşdur, daha sonra onlardan bəziləri əhliləşdirilərək yoldaş ve ev heyvanı rolunu oynamışdır. Müasir dövrdə isə heyvanlardan istifadə məqsədlərimiz kifayət qədər artmışdır. Belə ki, onların ətlərindən qida mənbəyi kimi kürklərindən geyim məqsədi kimi istifade etmekle yetinməyib sümüklərindən, dişlərindən ve buynuzlarından da müxtəlif məqsədlər üçün istifadə edirik, hətta əyləncə və idman sahəsində də heyvanlardan istifadə olunur. Fəlsəfə tarixinin çox uzun bir dövründə bu məsələlər gözardı edilmis, heyvanlarin məhz bu məqsədlər üçün var olduğu qəbul edilmişdir. Lakin, Peter Singerin “Animal liberation” əsəri ile heyvan etikası sahəsində dönüş nöqtəsi yarandı. Fəlsəfə tarixində kifayət qədər mübahisə yaradan bu əsərlə Peter Singer heyvan azadlığını qlobal səviyyəyə qaldırdı. “A*nimal Liberation* əsəri heyvan hüquqları hərəkatına, vegetarianlıq ideyasına və cəmiyyətin heyvanlara münasibətinə əhəmiyyətli təsir göstərmişdir. Singer-in bu kitabı, Ruth Harrison-un *Animal Machines* əsərinin açdığı gözləri daha da genişləndirərək ictimaiyyətin heyvan istismarını görməsinə səbəb olmuşdur” [Simon Coghlan, 1978]. Bu barədə məqalənin sonrakı hissələrində kifayət qədər məlumat veriləcək. İndi isə fəlsəfə tarixində insan heyvan münasibətləri ve heyvanlara etik baxışın tarixi ilə bağlı qeydlər göstərmək yerinə düşər. Fəlsəfə tarixində heyvan etikası fikrini ilk dəstəkləyən filosof Plutarx sayılır. “Plutarxın özü yəqin ki, Delphi rahibi olmamışdan əvvəl həyatının ən azı bir hissəsində vegetarian olub. Şübhəsiz ki, onu heyvanların böyük müdafiəçisi adlandırmaq olar – bu mövqeyini o, əsərlərində kifayət qədər ifadə etmişdir. Yazılarında o, adətən heyvanlara qarşı qəddar davranışı və ya heyvan ətinin yeyilməsini tənqid edir” [Miszczyńsk, 2019, s.54]. Plutarxın əksinə olaraq antik fəlsəfənin önəmli filosoflarından olan “Aristotel belə bir iyerarxiya yaratmışdır ki, burada qeyri-insan varlıqlar aşağı pillədə sayılırdı, çünki onlar qida və hissiyyat ruhuna sahib olsa da, qida və hissiyyat ruhuna əlavə olaraq rasional insan ruhuna malik deyildilər” [Gary L. Francione, s.37]. Aristotel yazırdı ki, “bitkilər heyvanlar üçün, heyvanlar isə insanlar üçün yaradılmışdır; ev heyvanlari bizim istifadə və təminatımız üçündür; vəhşi heyvanların isə, ən azı böyük hissəsi, həmçinin bizim təminatımız üçün və ya başqa faydalı məqsədlər üçün yaradılmışdır, məsələn, bizə geyim və digər oxşar ehtiyacları təmin etmək üçün” [Gary L. Francione, s.37]. Orta əsrlərdə heyvanların əxlaqi statusu dini ve teoloji kontekstdə nəzərdən keçirilirdi. Baxmayaraq ki, heyvanlar da Allahin yaratdığı varlıqlar kimi qəbul edilirdi, ancaq onlar bu dövrün antroposentrik baxışlarına tabe edilirdi. Heyvanlar tarixin başqa dövrlərində olduğu kimi bu dövrdə də insanlar üçün yaradılmış sayılırdı. Bu dövrün ən önəmli filosoflarından olan Akvinali Foma canlı həyat formalarının 3 səviyyəsini fərqləndirir; bitkilər, heyvanlar və insanlar. Bu iyerarxiyada

bitkilərdən üstün olan heyvanlar rasional varlıqlar olmadığı üçün insanlardan aşağı səviyyədə canlı forması olaraq insanlar üçün alət rolunu oynayırlar. "Biz heyvanları öldürməyin insan üçün günah olduğunu iddia edənlərin səhvini rədd edirik. Çünki təbiətin gedişində heyvanlar insanın istifadəsi üçün yaradılmışdır... Buna görə də insan onları öldürməklə və ya başqa şəkildə istifadə etməklə heç bir ədalətsizlik etmir" [Barad, 1988, s.107]. Orta əsrlərdə dinin də təsiri ilə bəzi filosoflar heyvanlara qarşı mərhəmətli davranmağın ve qəddar olmamağın daha qəbuledilən olduğunu söyləyirdilər. Bunlardan biri də elə Foma idi. "Lakin o, heyvanlara qarşı qəddarlığı onların ağrı çəkməsinə görə deyil, belə qəddarlığın insanları bir-birinə qarşı da qəddar olmağa yönəldə biləcəyi üçün pisləyirdi" [Barad, 1988, s.107]. Əgər biz heyvan etikasının tarixinə nəzər salırıqsa burada mütləq Rene Dekartın adı qeyd olunmalıdır. Onun heyvanlarla bağlı fikirləri kifayət qədər mübahisəli olmuş ve özündən sonrakı dövrlərdə çoxlu sayda tənqidlərə məruz qalmışdır. Peter Singer kitabında bu dövrü belə izah etmişdir: "Xristian təlimlərinin ən son, ən qəribə və – heyvanlar üçün – ən ağrılı nəticəsi 17-ci əsrin birinci yarısında Rene Dekartın fəlsəfəsində ortaya çıxdı" [Singer, çev Doğan, s.305]. Kartezyen fəlsəfəsinin ən önəmli doktrinalarından olan bete machine dokrinasında Dekart heyvanlarla bağlı fikirlərini ortaya qoyur. Filosofa görə heyvanlar maşındırlar, onların şüuru yoxdur, düşünmürlər ve ümumiyyətlə heçnə hiss etmirlər [Cottingham, 1978, s. 214]. Lakin sonrakı bioloji ve etoloji tədqiqatlar Rene Dekartin heyvanların mexaniki varlıqlar olması ilə bağlı fikirlərinin səhv olmasını sübut etdi. Jane Goodall [in the shadow of man 1971] əsərində simpanzelərin alət düzəltmə bacarıqlarının ve sosial münasibətlər qurma qabiliyyətlərinin olduğunu, Frans de waal [good natured 1986, a*re We Smart Enough to Know How Smart Animals Are?*, 2016] əsərlərində heyvanlarda empatiya, ədalət duyğusu ve emosionallığın olmasını təcrübə ve elmi faktlarla nümayiş etdirmişlər. Belə etoloji tədqiqatların sayını çoxaltmaq mümkündür. Fəlsəfə tarixində heyvanlarla Dekartın mövqeyinə oxşar mövqe nümayiş etdirən önəmli filosoflardan biri də Kantdır. Kantın əxlaq fəlsəfəsi də insan mərkəzli bir mövqe izləyərək insanların heyvanlara qarşı hər hansı əxlaqi öhdəliyinin olmasını qəbul etmir. Ancaq Kant insanlarin heyvanlara qarşı dolaylı yolla əxlaqi məsuliyyətinin olmasini vurğulayir. "*O qismən bir həll təklif edir: biz heyvanlara birbaşa öhdəliklər daşımaya bilərik, amma heyvanlarla bağlı ozümüzə qarşı öhdəliklərimiz ola bilər. İdeya belədir ki, heyvanlara işgəncə vermək, onları qəddarlıqla öldürmək, idman məqsədilə ovlamaq və ya minnətdarlıq göstərmədən rəftar etmək zamanı insan öz insanlığına lazımı hörməti göstərmir*" [Birch, 2020, 2 of 11]. Yəni Kanta görə heyvanlara qarşı birbaşa əxlaqi borcumuz yoxdur lakin heyvanlara qarşı qəddarlıq bizdə qəddarlıq ve mərhəmətsizlik duyğularını ön plana çıxara bilər ve bizdə insanlara qarşı da belə duyğular güclənə bilər. Heyvan etikasında

heyvanlara qarşı ənənəvi fikirlərə qarşı çıxan ən önəmli fiqur utilitarist fəlsəfənin banisi Jeremy Bentamdır. Məhz müasir heyvan etikasına ən çox təsir etmiş fikirlərdən biri onun “An introduction to the principles of morals and legislation” əsərindəki fikirləridir. Bentam yazır ki, “Sual onların danişa bilməsi ve ya düşünə bilməsi deyil, əzab çəkə bilib-bilməməsidir” [Bentham, 1789/2017, s.144]. Bu ifadə müasir dövrdə heyvan etikası sahəsində ən çox istinad edilən ifadələrdən biridir. Bentam insanların rasional olmaqları ve danışa bilmələri ilə heyvanlardan üstün olaraq göstərilməsinə qarşı çıxaraq bildirir ki, “yetkin bir at və ya it, bir günlük, bir həftəlik, hətta bir aylıq körpə ilə müqayisədə xeyli daha rasional və daha danışan bir heyvandır” [Bentham, 1789/2017, s.144]. “Animal liberation” əsərində Bentamın bu yazısına istinad eden Peter Singer yazır ki, Bentamın da tam olaraq doğru bildirdiyi kimi bir canli varlığın əxlaqi refleksiya olmasının əsas meyarı onun rasionallığı danışa bilməsi ve ya yüksək riyazi biliyə malik olması olmamalıdır,heyvanların maraqlarının qəbul edilməsi üçün ağrı hiss etmək və ya əzab çəkə bilmək kifayət qədər əsaslı kriteriyadır [Singer, çev Doğan, s.54] Heyvan etikasından bəhs edərkən adi qeyd olunmalı mütəfəkkirlərdən biri də Charles Darvin olmalıdır. Çünki onun təkamül nəzəriyyəsi insan və heyvan arasında kəskin fərqləri ortadan qaldıran ve uzun müddət qərb fəlsəfi fikir tarixində dominant olan nəzəriyyə oldu. Darvinin heyvan etikasına təsiri barədə amerikan filosofu James Rachels 1991-ci ilde “Created from animals: the moral implications of darwinism” kitabını nəşr etdirdi. James Rachels bu kitabında Darvini heyvan etikası sahəsində önəmli fiqurlardan biri kimi təqdim edir. Filosofa görə əgər biz Darvinin təkamül nəzəriyyəsini qəbul ediriksə onda insan mərkəzli ənənəvi etikanın yenidən nəzərdən keçirilməsi vacibdir. Darvinin təkamül nəzəriyyəsinin mərkəzi ideyalarından biri heyvanlar ve insanlar arasinda növ fərqliliyinin deyil sadəcə dərəcə fərqliliyinin olması idi. Bu dövrü üçün son dərəcə kəskin ve təsirli ideya heyvanları hiss edən varlıqlar olaraq göstərməklə, onları əxlaqa layiq canlılar olaraq göstərilməsi üçün zəmin yaratdı. Kitabın abstraktında James Rachels çox haqlı olaraq bildirir ki, “nəşr olunduğu vaxtdan bəri “*Növlərin Mənşəyi”* Darvinizmin ənənəvi əxlaqı sarsıtdığı üçün tənqid olunmuşdur. Xüsusilə də, o, insanlar ilə digər heyvanlar arasındakı qohumluğa vurğu etdiyi üçün, Darvinizm insan ləyaqəti ideyası ilə- yəni insan həyatının xüsusi bir dəyərə sahib olduğu, digər heyvanların isə insanların seçdiyi hər hansı bir məqsəd naminə qurban edilə biləcəyi fikri ilə- uyğun görünmür” [James Rachels, 1990]. Darvinin heyvan etikasına təsiri bu nəzəriyyə ilə yekunlaşmır. “Onun “The expression of the emotions in man and animals” əsəri insanlar və digər heyvanların emosional yaşamlarında paralelliklər üçün yeni faktlar ortaya qoyurdu” [Singer, çev Doğan, s.313]. O, bu kitabında heyvanların da insanlar kimi heyvanlar da narahatlıq, kədər, ümidsizlik, bədbinlik, sevinc, sevgi, nəvaziş hissi, sadiqlik, pis xasiyyət, inciyənlik,

qətiyyət, nifrət, qəzəb, təhqir, istehza, ikrah, günahkarlıq, qürur, aciz qalmaq, səbir, təəccüb, heyrət, qorxu, dəhşət, utanc, çəkingənlik və təvazökarlıq kimi hissləri yaşayırlar" [Rachels, 1990, s. 175]. Son olaraq, onu qeyd edə bilərik ki, heyvan etikası heyvanlar üzərində formalaşan müxtəlif baxışların və uzun bir intellektual inkişafın nəticəsi olaraq meydana çıxmışdır.

## 3.Peter Singer-utilitarianizm

Bütün tarixi dövrlərdən fərqli olaraq XX əsrin 2-ci yarısı heyvan etikasının və heyvan hüqularının etikanın tərkibində bir sahə olaraq ortaya çıxdığı əsas dövrdür. Heyvan etikası ilə bağlı müzakirələrin böyük hissəsi əsasən üç düşüncənin ətrafında cəmlənmişdir: Peter Singer və R.G.Frey-in utilitarist yanaşmaları və Tom Regan-ın heyvanlara demək olar ki, tam hüquqlar verilməsini müdafiə edən mövqeyi [David DeGrazia, s.112]. Təbii ki, R.G. Frey, Martha Nussbaum, Bernard Rollin və başqa filosoflar da dəyərli konsepsiyalar irəli sürmüşlər, lakin biz məqaləmizdə heyvan etikası tarixində çox mühüm mövqe tutan Peter Singer ve Tom Reganın fəlsəfi təlimlərinə diqqət yetirmək istəyirik. Peter Singer ve Tom Regan heyvanlara əxlaqi haqq tanınması ilə bağlı fundamental işlər görmüş filosoflardır. Ancaq onların fəlsəfi yanaşmalarında fərqlər mövcuddur. Belə ki, utilitarist mövqeyə sahib olan Peter Singer heyvanların əzabının minumuma endirilməsini və ümumi xoşbəxtliyin maksimuma çatdırılmasını tələb edir. Ancaq burada belə bir məqam qeyd olunmalıdır ki, Peter Singer, "Animal Liberation" adlı kitabında klassik utilitarizmə (faydacılığa) daha yaxın dayanaraq, həzz və ağrı duymaq qabiliyyətinə əsaslanan bir heyvan etikası irəli sürür. Lakin onun "Practical ethics" (1993) kitabının ikinci nəşri kimi daha sonrakı dövr əsərlərində Singer artıq həzlərdən çox seçimlərə əsaslanan bir utilitarizm mövqeyini qəbul edir" [Çekem, 2023, s.461]. Bentamın klassik utilitarizm fəlsəfəsinə görə "hər hansı bir hərəkət xoşbəxtliyi artırdığı müddətcə doğru, əzabı artırdığı müddətcə isə səhvdir". Peter Singer "Practical ethics" kitabında klassik utilitarianism fəlsəfəsini "hedonist utilitarianizm" adlandırır [Singer, 1993, s.13]. O, yazır ki, "Bunun əksinə olaraq, bizim çatdığımız baxış "üstünlüklərə əsaslanan utilitarizm" (preference utilitarianism) adlanır, çünki bu nəzəriyyəyə görə, biz elə davranmalıyıq ki, nəticədə təsirə məruz qalanların maraqları mümkün qədər təmin olunsun" [Singer, 1993, s.13]. Singerin utilitarianizmində xoşbəxtlikdən çox fərdlərin maraqları nəzərə alınır. Həmçinin hər hansı bir akt nə qədər çox fərdin maraqları və istəklərini nəzərə alırsa o daha əxlaqi akt sayılır. Singer əxlaq fəlsəfəsinin əsası bərabərlik prinsipidir. Ancaq filosofa görə bu bərabərlik rasionallığa, zəkaya və hətta fərdlərin müxtəlif xüsusiyyətlərinə və görünüşlərinə əsaslanmır [Villanueva, 2017]. Fərdlərin fərqliliklərindən asılı olmayaraq onların əxlaqi bərabərlikləri tanınır. Singer bu bərabərliyi insan olmayan heyvanlara da aid edir. Singerin bərabərlik prinsipi özündə eyniliyi ehtiva etmir. "Əsas bərabərlik prinsipi, eyni və ya eyni cür

rəftarı deyil, eyni dərəcədə nəzərə almağı (əhəmiyyət verməyi) tələb edir. Fərqli varlıqların eyni dərəcədə əhəmiyyətə layiq görülməsi, onlara fərqli şəkildə rəftar edilməsinə və fərqli hüquqlar tanınmasına səbəb ola bilər"[Singer, çev Doğan, s.48]. Məsələn, insanların səsvermə hüququ varsa, biz heyvana da o hüququ verməli deyilik, çünki onun belə bir qabiliyyəti yoxdur. Heyvanın marağı isə ağrı çəkmək istəməməsidir. Məhz biz heyvanlara rahat yaşamaqları və ağrı çəkməməkləri üçün bir çevrə yarada bilsək, onların maraqlarını nəzərə almış oluruq və bərabərlik prinsipinə sadiq qalırıq. Çünki onlar da insanlar kimi hiss edən varlıqlar olduqları üçün onların da maraqları nəzərə alınmalıdır. Singerin əxlaq fəlsəfəsində bir varlığın ağrı hiss etmə qabiliyyəti onu əxlaqi baxımdan nəzərə alınmasında önəmli bir kriteriya hesab olunur. Onun fəlsəfəsində əxlaqi statusa sahib olmaq üçün rasionallıq əsas meyar deyil, əsas meyar məzh ağrı hiss etməkdir. Singer yazır ki, "əgər bir varlıq əzab çəkirsə, bu əzabı əhəmiyyətə almamaq üçün heç bir əxlaqi əsas irəli sürmək olmaz" [Singer, çev Doğan, 2018, s.54]. Singerə görə heyvanlar da insanlar kimi ağrını hiss edən varlıqlardır. Biz başqa insanın ağrısını özümüzdə hiss edə bilməsəkdə onun davranışındakı göstəricilər bizə bu ağrının olduğunu göstərir. Heyvanlar da bizi kimi ağrı hiss edəndə müəyyən səslər vasitesilə və ya ağrıdan qaçmaq kimi davranışlarla onları bizə göstərə bilir. (Singer kitabında heyvanların ağrı hiss etdiyini dəqiq şəkildə göstərmək üçün Lord Brainin "Presidential address", Richard Serjantin "The spectrum of pain" kitablarina istinad edir.) Singer yazır ki, "heyvanlar ağrı hiss edə bilirlər. ….. Heyvanların hiss etdiyi ağrını (və ya zövqü) insanların hiss etdiyi eyni miqdardakı ağrıdan (və ya zövqdən) daha az əhəmiyyətli hesab etməyin heç bir əxlaqi əsaslandırması ola bilməz" [Singer, çev Doğan, 2018, s.64].

## 4.Növçülük

Heyvan etikası kontekstində ən çox müzakirə olunan mövzulardan biri də "növçülük" (speciesism) movzusudur. "Speciesism- bir və ya bir neçə xüsusi növə aid olmadığı üçün digər varlıqlara qarşı əsassız və mənfi ayrı-seçkilik etmək və ya onlara pis davranmaq deməkdir" [Horta, 2010,]. İlk dəfə bu termin Britaniyali psixoloq Richard Ryder tərəfindən 1970-ci ildə irəli sürülüb. Sonra bu termini "Animal liberation" kitabında istifadə edən Peter Singer daha məhşurlaşdırıb və öz fəlsəfi təliminin mərkəzi ideyalarından biri halına gətirib. Bir çox elmi ədəbiyyatda termini dolğun şəkildə izah etmək üçün onu irqçilik və cinsi ayrıseçkilik kimi məhfumlarla müqayisə edirlər. Çünki hər üç məsələdə müəyyən qrupa aid olanlar digərlərini fərqli qruplarda gördükləri üçün onlara ayrıseçkilik edir ve onlara qarşı neqativ davranışlar numayiş etdirirlər. Peter Singer "Speciecism and moral status" məqaləsində yazır ki, mən "növçülük" (speciesism) terminindən qəsdən istifadə edirəm ki, bizim yaxşı tanış olduğumuz digər "-izm"lərlə, xüsusilə irqçilik (racism) və seksizm (sexism) ilə paralellik qura bilim" [Singer, 2009, s.572]. Peter Singer de daxil

olmaqla heyvan etikasını müdafiə edən filosoflar bildirirler ki, hər hansı bir insanın müəyyən irqə və ya cinsə mənsub olmasi bioloji bir təsadüf olduğu üçün onlara qarşı hansısa ayrıseçkilik əxlaqi bir davranış deyil. Müəyyən dövrlər ərzində irqçiliyi müdafiə edən elmi cəmiyyətlər olsa artıq müasir dövrdə bioloji tədqiqatlar irqçiliyi tamamilə rədd edir. Digər tərəfdən qəbul etdiyimiz müəyyən problemlər olsa da qadın və kişilərin bərabərliyi artıq bir çox cəmiyyətlərdə fundamental bir prinsip kimi qəbul edilir. Singer və başqa heyvan əxlaqçılarının da növçülüklə bağlı əldə etmək istədiyi məhz bu məsələdir. Birdən birə olmasada vaxt ərzində heyvanların əxlaqi status əldə etmə məsələsini həll etmək heyvan etikasının qarşısında duran ən önəmli məsələlərdəndir.

Singer növçülüyün də bir ayrı-seçkilik forması olduğunu müdafiə edir. Onun fikrincə, bir növün üzvü olmaq, həmin üzvün sahib olduğu əxlaqi statusu müəyyən edən və ya əxlaqi baxımdan əhəmiyyət kəsb edən bir xüsusiyyət deyil. Buna görə də maraqların əhəmiyyətinə görə sıralanmasında aid olunan növə baxmaq (məsələn, sırf insan növündən olduğum üçün ləzzətimə düşkünlüyüm pişiklərimin sahib olduğu əxlaqi dəyərdən daha önəmlidir kimi düşünmək) cinsiyyətə və irqə baxmaq qədər əxlaqi baxımdan yanlışdır" [Alexander, 2023]. Ayriseçkiliyin bütün növlərində insanlar eyni cür davranırlar. Bir irqə aid olan insanlar öz irqlərinin insanlarını və onların xüsusiyyətlərini daha üstün görürlər, digər irqə aid insanlara ayrıseçkilik edirlər ve yaxud bir cinsə aid olan olan insanlar digər cinsin nümayəndələrinə qarşı davranışlarında sosial, hüquqi, əxlaqi qüsurlara yol verirlər. Növçülükdə də insanlar insan olmayan heyvanlara qarşı mənfi davranışlar göstərir, onları əxlaqi subyekt kimi qəbul etmirlər. Heyvan etikasına görə də bu canlı varlıqlar mənəvi subyektler kimi qəbul olunmalıdırlar ve insanlar onlara qarşı davranışlarında daha diqqətli olmalıdırlar. Singere gore, "insanların böyük əksəriyyəti növçüdür" [Singer, çev Doğan, 2018, s.56]. Burada Singerin perspektivi ona görə belədir ki, insanların əksəriyyəti heyvanların qida, geyim, nəqliyyat, əyləncə, elmi təcrübələr məqsədilə istifadəsinə göz yummağa davam edirlər. Ancaq Singer də Bentam kimi düşünür ve heyvanların əzab çəkməsinin qarşısının alınmasını vurğulayır. Heyvan etikasında ən önəmli məsələlərdən biri də növçülüyün məntiqi zəifliyini ortaya çıxarmaq üçün istifadə edilən marjinal hallar (marginal cases) arqumentidir. Heyvan etikasında fəaliyyət göstərən bir çox filosoflar növçülüyü tənqid etmək bu arqumentdən istifadə edirlər. Marjinal hallar arqumenti nədir? "“Marjinal hallar arqumenti" o mövqeyə etiraz kimi irəli sürülür ki, guya marjinal insanlar (məsələn, körpələr, əqli geriliyi olanlar, ağır demans xəstələri) əxlaqi baxımdan nəzərə alınmalıdır, amma heyvanlar yox" [Julia K.Tanner, 2009, s.52]. Fəlsəfə tarixində bir çox filosof insan heyvan fərqlərini əsaslandırarkən insanların rasional varlıqlar olduğunu onların dilə mənsub olduğunu

vurğulamış ve bu səbəbdən də onların mənəvi statusa sahib olduğunu irəli sürmüşlər. Ancaq marjinal hallar arqumentinə görə bəzi insanlar rasionallığına ve basqa daşıdığı müxtəlif xüsusiyyətlərinə görə hətta heyvanlardan geridə qalırlar. Məsələn yeni doğulmuş körpələr, əqli cəhətdən inkişafdan geri qalmış insanlar, alzheimer xəstələri insana aid olan qabiliyyətlərə malik deyiller. Ancaq yenə də bütün cəmiyyətlərdə bu insanlar əxlaqi statusa sahib sayılırlar. Məhz bu səbəbdən əxlaqi status sadəcə rasionallıqla bağlı bir məhfum olmamalıdır. Məhz bu arqumentin ortaya qoyduğu ideyaya görə rasionallığa malik olmayan insanların əxlaqi öhdəliyə sahib olduğu kimi heyvanlar da olmalıdır. Bu mövzu ilə bağlı yazılmış ən önəmli yazılardan biri Alastair Norcrossun yazdığı "Puppies,pigs and people: eating meat and marginal cases" məqaləsidir. 2004-cu ildə dərc edilən bu məqalə həm heyvan etikasında həmdə növcülük müzakirələrində əsas istinad mənbələrindən birinə çevrilib. Biz yazimizda bu məqaləni tam şəkildə təhlil etmək fikrində deyilik. Sadece burada bizim diqqətimizi çəkən məqam müəllifin marjinal hallar ve növcülüklə bağlı verdiyi sualdır. Biz idrak qabiliyyəti aşağı insanların əxlaqi statusunun adi insanlardan aşağı olduğunu qəbul edərək onları heyvanlar kimi istifadə edə bilərikmi? [Norcross, 2004, s.241] Müəllif öz məqaləsində bu suala Mary Anne Warren ve Bonnie Steinbock kimi heyvan etikasi sahesinde önəmli filosoflara istinad edərək cavab verir. "Warren təklif edir ki, rasional olmayan insanları qorumaq üçün güclü praktiki və emosional səbəblər mövcuddur; bu səbəblər isə əksər insan olmayan heyvanlar üçün yoxdur" [Norcross, 2004, s.241]. Müəllifin bu suala ikinci cavabi ise Steinbockun sitadına esaslanir. "Mən şübhə edirəm ki, kimsə konkret və əxlaqi baxımdan əhəmiyyətli bir fərq göstərə bilsin ki, məsələn, bir şimpanzeni eksperimentdə istifadə etmək normal insandan (düşünmə, əxlaqi məsuliyyət və s. qabiliyyəti daha az olan) daha ədalətli olsun. Bəs onda ağır zehni qüsurlu insanlarla eksperiment aparmalıyam? Utilitarist düşüncələri bir kənara qoysaq, biz öz növümüzün əlillərinə qarşı xüsusi bir öhdəlik hiss edirik, çünki onlar bu dünyada belə qayğı olmadan yaşaya bilməzlər.… Üstəlik, ağır zehni qüsurlu insanları düşündükdə biz belə düşünürük: 'Bu mənim başıma da gələ bilər'. Birinin zehni qüsurlu doğula biləcəyini düşünmək məntiqlidir, amma birinin meymun olaraq doğulacağını düşünmək məntiqli deyil.… Burada artıq 'əxlaqi baxımdan əhəmiyyətli fərqlərdən uzaqlaşırıq və daha çətin ifadə olunan bir şeydən danışırıq: yəni əxlaqi düşüncədə hiss və emosiyaların rolundan" [Norcross, 2004, s.241]. Alaistair Norcross məqalənin davamında bildirir ki, hər hansı bir canlının əxlaqi status daşıyıb daşıyamayacağı problemi empatiya, emosiya, görünüş, rəng kimi faktorlarla müəyyən edilmesi etik cəhətdən qeyri-obyektiv olacaqdır [Norcross, 2004, s.242]. Nəhayət, filosof marjinal hallarla bağlı fikrini belə sonlandırır ki, bəziləri öz növünün maraqlarını heyvanların maraqlarından üstün tutmağı öz növünün sağ qalması üçün önəmli hesab edə

biler, ancaq bu fikir dogru ola bilsədə əxlaqi olmaya biler [Norcross, 2004, s.242]. Norcrosun bu yazısı marjinal hallar arqumentinin növçülüyün tənqidini vurğulamaqla bərabər heyvan rifahının qorunması ilə bağlı güclü perspektivlər təşkil edir. Heyvanlarla insanlar arasındakı fərqlilik bizə onlara qarşı empatiya hissimizi zəiflədərək heyvanların hüquqlarını qəbul etməyə çətinliklər yaradır. marjinal insanları rasional olmadığı halda qorumaq əxlaqi bir davranış sayıldığı halda heyvanları tam da eyni səbəbə görə istismar etmək əxlaqsız bir davranış sayılmır. Son olaraq o da qeyd edilməlidir ki, marjinal hallar arqumenti heyvanların mənəvi statusunu müdafiə etmək üçün bu sahədə çalışan filosoflar tərəfindən ortaya atılan çox güclü bir arqument olsada kifayət qədər mübahisəli, həssas ve tənqidə açıq xarakter daşıyır. Məhz buna görə də bu arqument müəyyən tənqidlərə məruz qalmışdır. Lakin biz burada mövzudan kənara çıxmamaq üçün bu arqumentə yönəldilən tənqidləri qeyd etməyəcəyik. Bundan əlavə, bu tənqidlərin hər biri ayrıca və geniş müzakirə tələb edən mövzulardır.

**5.Tom Reqan- Hüquqlar nəzəriyyəsi**

Heyvan etikası sahəsində digər çox önəmli və təsirli filosof Tom Regandır. Peter Singer kimi Tom Regan da heyvanların istifadə və istismar olunmasına qarşı çıxmışdır. Lakin Reqanın yanaşması Singerinkindən tamamilə fərqlənir, hətta o, Singerin utilitarian yanaşmasını tənqid edir. Singer heyvanların hiss edən varlıqlar kimi görür və onların agrı hiss etməsinə görə istismarını qəbul etmirdisə, Reqan heyvanların hüquqlarının olmasını müdafiə edirdi və məhz bu səbəbdən onların qorunmasını tələb edirdi. Bu səbəbdən də Tom Reqanın fəlsəfəsi “The rights view” adlanır. Tom Reqan bildirir ki, “utilitarizmdə tapdığımız bərabərlik anlayışı, heyvan və ya insan hüquqlarını müdafiə edən birinin nəzərdə tutmalı olduğu bərabərlik növü deyil. Utilitarizm fərqli fərdlərin bərabər daxili dəyəri və ya mənəvi dəyəri üçün yer ayırmır; çünki ümumiyyətlə belə bir daxili dəyər anlayışı yoxdur” [Regan, 1986, s.184]. Reqan burada Singerin heyvanları hiss edən varlıqlar olduğu üçün onlara mənəvi status verən utilitarian fəlsəfəsini heyvanlara daxili dəyəri (inherent value) bəxş etmədiyi üçün tənqid edir və onun fəlsəfəsindəki bərabərliyi əsl bərabərlik hesab etmir. Filosof bu baxışını daha yaxşı izah etmək üçün fincan analogiyasını gətirir. Reqana görə “bir fincanın içində müxtəlif mayelər ola bilər- bəzən şirin, bəzən acı, bəzən hər ikisinin qarışığı. Dəyərə malik olan bu mayelərdir: nə qədər şirin olarsa, bir o qədər yaxşı; nə qədər acı olarsa, bir o qədər pis. Fincanın, yəni qabın, özünün dəyəri yoxdur. Dəyər, onun içindəkilərdədir, yoxsa onun özündə deyil. Utilitarist baxışa görə, sən və mən o fincan kimiyik: fərd olaraq bizim dəyərimiz yoxdur, buna görə də bərabər dəyərimizdən danışmaq olmaz” [Regan, 1986, s.184].

Reganının baxışları Emmanuel Kantın əxlaq fəlsəfəsinə əsaslanan deontoloji baxış bucağıdır. “Kant başlanğıc nöqtəsi kimi ağrı və ləzzəti götürməmiş,

insanlığın fərqləndirici xüsusiyyətinin rasionallıq olduğunu vurğulamışdır. Buna görə nəticə etibarilə bütün insanların bir-birinə qarşı ümumi rasional vəzifələri var və bu vəzifələrin mərkəzində başqa insanların insan kimi dəyərinə hörmət etmək dayanır" [Misselbrook, 2013, s.211]. Bəzən vəzifə əsaslı etika adlandırılan deontologiyada hərəkətin nəticələrinə baxılaraq onların əxlaqi olub-olmaması müəyyənləşmir, burada hərəkət nəticədən asılı olmayaraq ağıla əsaslanan əxlaqi prinsiplərə uyğun gəlməlidir. Amma əvvəlki hissədə qeyd etmişdik ki, Emmanuel Kantın heyvanların mənəvi statusa sahib olmasını qəbul etməmişdir. Yəni onun deontoloji nəzəriyyəsi sadəcə rasional varlıqlar olan insanlar üçün nəzərdə tutulmuşdur. Kantın deontoloji əxlaq fəlsəfəsini heyvan etikasına da tətbiq edən filosof Tom Regandır. Müasir deontoloji etikçi Tom Regan iddia edirdi ki, Kantın "daxili dəyərlər" (inherent value) haqqında arqumenti heyvanları da əhatə edə bilər. Reqanın heyvanlarla bağlı etik təliminin mərkəzi ideyaları məhz heyvanların həyat subyekti (subject-of-a-life) olmaları və onların daxili dəyərə (inherent value) malik olmaları, həmçinin mənəvi agent və mənəvi pasiyent məsələləridir. Biz onun "The rights view" nəzəriyyəsini tamamilə anlaşılan olması üçün ilk öncə bu fəlsəfi terminlərin izahını verməк məcburiyyətindəyik.

**6.Həyatın subyekti anlayışı və daxili dəyər prinsipi**

Reqan the case for animal rights kitabında yaşamaq anlayışına oxşarlığı olan və ona alternativ bir anlayış olan "subject-of-a-life" anlayışını meyar olaraq ortaya qoyur [Regan, 1983, s.243]. Əgər fərdlər inanclar və istəklərə malikdirlərsə; qavrayış, yaddaş və gələcək duyumuna, o cümlədən öz gələcəklərinə sahibdirlərsə; emosional həyata, zövq və ağrı hisslərinə malikdirlərsə; üstünlük və rifah maraqları varsa; istək və məqsədlərini həyata keçirmək üçün hərəkətə başlama qabiliyyətinə malikdirlərsə onlar "həyatın subyekti" adlanırlar [Regan, 1983, s.243] Reqan yazır ki, "Həyatın subyekti" meyarına cavab verən varlıqlar özlərinə məxsus xüsusi bir dəyərə- daxili (mənəvi, doğuşdan olan) dəyərə malikdirlər və onlar sadəcə bir vasitə və ya daşıyıcı kimi qəbul edilə və ya rəftar edilə bilməzlər [Regan, 1983, s.243]. Tom Reqanın əxlaq fəlsəfəsində sistematik şəkildə işlədilmiş mövzulardan biridə heyvan hüquqları üçün mühüm əhəmiyyət kəsb edən mənəvi agent və mənəvi pasiyent anlayışlarıdır. Deməli, "Moral agentlər (əxlaqi agentlər) müxtəlif mürəkkəb qabiliyyətlərə malik olan fərdlərdir; xüsusilə onlar ədalətli və qərəzsiz əxlaqi prinsipləri nəzərə alaraq ümumilikdə nə etməli olduqlarını müəyyən etmək qabiliyyətinə malikdirlər və bu qərarı verdikdən sonra, öz istəkləri ilə həmin əxlaqa uyğun olaraq hərəkət etmək və ya etməmək seçim haqqına sahibdirlər" [Regan, 1983, s.151]. Əxlaqi agentlərə əxlaqi qərar verə bilən və onun nəticələrini dərk etmək qabiliyyəti olan yetişkin insanlar daxildir. "Moral agentlərdən fərqli olaraq, moral patientlər öz davranışlarını idarə etmək və etdiklərinə görə əxlaqi məsuliyyət daşımaq üçün lazım olan

şərtlərə malik deyillər. Moral patientlər, doğru və düzgün olan hərəkətləri seçməyi düşünərkən əxlaqi prinsipləri formalaşdırmaq və tətbiq etmək bacarığına sahib deyillər, üstəlik, bu prinsipləri nəzərə alaraq seçim etmək qabiliyyətləri yoxdur" [Regan, 1983, s.152]. Əxlaqi pasiyentlərə isə rasionallığını müəyyən yollarla itirmiş yetişkin insanlar, uşaqlar və heyvanlar daxildir. Ancaq filosofun etik təlimində bu məsələ daha qarışıqdır. Çünki o, əxlaqi pasiyentləri də 2 qrupa ayırır. Birinci qrupa sadəcə hiss edən, lakin başqa zehni qabiliyyətləri olmayanlar (balıqlar, sürünənlər və bəzi sadə məməlilər) aiddir. İkinci qrupa isə həm hiss edən, həm də daha mürəkkəb psixoloji qabiliyyətlərə malik olanlar (körpələr, zehni qüsurlu insanlar həm də itlər, pişiklər, şimpanzelər, fillər, delfinlər) aiddir. Reqanın heyvan etikasına görə heyvanların əxlaqi statusunun müəyyən edilməsi onların moral agent olub olmamaqları ilə əlaqədar olmamalıdır. Mənəvi pasiyentlər də həyat subyektləri (subject of a life) olduqlarına görə onlar daxili dəyərə yəni özü-özlüyündə dəyər sahib olduqları üçün əxlaqi statusa sahib olmalıdırlar. "Regan'ın nəzəriyyəsinə görə, "həyatın subyekti" hesab olunan heyvanlar, insan və ya digər hər hansı növdən olmasına baxmayaraq, bərabər daxili dəyərə malikdirlər"[Kemerrer, 2006, s.59]. Belə ki, bərabər daxili dəyərə malik olan varlıqların hamısı mənəvi statusa malik olmalıdırlar. Əslində, Reqanın bu fikirləri özündə Kantın əxlaq fəlsəfəsinə tənqidləri ehtiva edir. Çunki Kant daxili dəyər anlayışını sadəcə ağlı və rasionallığı olan varlıqlara daha dəqiq desək mənəvi agentlərə aid edirdi. Başqa sözlə Kantın etikasında heyvanlar rasional olmadıqları üçün daxili dəyərə malik deyildilər və nəticədə insanların onlara qarşı əxlaqi öhdəçiliyi yox idi. Reqan yazır ki, " …daxili dəyəri yalnız mənəvi agentlərlə məhdudlaşdırmaq özbaşına (arbitrar) bir mövqedir" [Regan, 1983, s.239]. Reqanın burada bildirmək istədiyi odur ki, heyvanlar da insanlar kimi "həyat subyektləri" olduqları üçün daxili dəyərə malikdirlər, onlar mənəvi agent olmasalarda mənəvi pasiyentdirlər və əvvəlcə də qeyd olunan kimi biz uşaqlara və ya zehni qüsurlu insanlara mənəvi öhdəçiliyimiz olduğu kimi heyvanlara qarşı da bu öhdəçiliyimiz olmalıdır. Reqanın Kantın fəlsəfəsinə qarşı etdiyi tənqidlərdən biri də odur ki, Kantın etikasından danışarkən biz qeyd etdik ki, Kant insanların heyvanlara qarşı birbaşa (direct) əxlaqi öhdəliyi olduğunu qəbul etmir. Sadəcə olaraq insanın heyvanlara qarşı dolaylı (indirect) öhdəlikləri vardır. Reqan öz etik fəlsəfi təlimini əsaslandırarkən Kantın bu fikirlərini tənqid edir. Reqan bildirir ki, dolaylı vəzifə nəzəriyyəsi mənəvi cəmiyyətin üzvləri kimi sadəcə mənəvi agentləri qəbul edir. Belə olduğu təqdirdə isə moral pasiyentlər bu cəmiyyətdən kənarda qalır. Buda o deməkdir ki, uşaqlar, zehni cəhətdən qüsurlu insanlar əxlaqi cəhətdən doğru və yanlışı ayıra bilmədikləri üçün onlar əxlaqi statusa sahib deyillər [Regan, 1983, s.154] Kantın əxlaq nəzəriyyəsinin bir çox prinsiplərini qəbul edən, Reqan Kantın sadəcə rasional varlıqların moral agent olmalarını

və sadəcə onların əxlaqi dəyərə malik olduqlarını fikrini tənqid edir. O, yazır ki, əgər Kantın dediyi kimi qəbul etsək insan mənəvi pasiyentləri rasional varlıqlar olmadıqları üçün onlarda özlərində dəyərli varlıqlar deyillər və sadəcə bir vasitədirlər. O yazır ki, əgər biz Kantın prinsiplərinə tam əməl etsək: Uşaq və ya ağır zehni qüsurlu insan (yəni "human moral patient")- çünki rasional deyillər- Kantın sistemində daxili dəyəri olmayan "şeylər" sayılır. Buna görə də, onlara birbaşa əxlaqi zərər vermək mümkün deyil, çünki onlar "özlüyündə məqsəd" deyillər. Onlara qarşı borcumuz yalnız rasional varlıqlara qarşı dolayı borcumuz sayılır [Regan, 1983, s.182].

**7.Nəticə**

Qərb fəlsəfəsinin antik dövrdən etibarən əxlaqi dəyərləri yalnız insan mənəviyyatı ilə əlaqələndirməsi tendensiyası XX əsrin sonlarından başlayaraq sorğulanmağa başladı. XX əsrdə texnologiyanın inkişafı, sənaye heyvandarlığına keçid kimi məsələlər heyvanların əzab çəkməsini daha görünən vəziyyətə gətirdi və heyvanlarla bağlı əxlaqi problemləri dərinləşdirdi. Belə ki, bu dövrdə Peter Singer və Tom Reqan kimi filosoflar heyvanların istismarına qarşı fikirlərlə çıxış edərək onların etik munasibətlərin iştirakçısı kimi görülməsini tələb edirdilər. Singerin utilitar yanaşması heyvanların da ağrı hiss edə bilən varlıqlar olduğu üçün onların maraqlarının nəzərə alınmasının vacibliyini ortaya qoyurdu. Digər tərəfdən Tom Reqan heyvanları da qorxulara, yaşamaq arzusuna və maraqlara sahib varlıqlar yəni həyat subyekti olduqlarını qəbul edir və onların əxlaqi cəhətdən nəzərə alınmalı olduqlarını bildirirdi. Başqa sözlə ifadə etsək, Singer heyvanların maraqlarının önəmini vurğulayan etik fəlsəfə ortaya qoymuşdu, Reqan isə heyvanların daxili dəyərə malik olduğundan onların da hüquqlarının olduğunu ifadə edirdi. Onların bu nəzəriyyələri fərqli etik ənənələrdən (utilitarizm və deontologiya) meydana gəlsədə, heyvan etikasının formalaşmasına və heyvanların etik mülahizələrin əsas mövzularından biri olmasına gətirib çıxardı.

**8.ƏDƏBİYYAT**

1. Singer, P. (1975). *Animal Liberation* [Hayvan Özgürleşmesi, çev. Hayrullah Doğan, 2018]. İstanbul: Ayrıntı Yayınları.
2. Regan, T. (1983). *The Case for Animal Rights*. University of California Press.
3. Rollin, B. E. (2006). The regulation of animal research and the emergence of animal ethics: A conceptual history. *Theoretical Medicine and Bioethics*, *27*(4), 285–304. https://doi.org/10.1007/s11017-006-9007-8
4. Singer, P. (1993). *Practical ethics* (2nd ed.). Cambridge University Press.
5. Francione, G. L. (1995). *Animals, property, and the law*. Temple University Press.

6. Barad, J. (1988). *Aquinas's inconsistency on the nature and treatment of animals*. Presented at the American Philosophical Association Eastern Division 85th Annual Meeting, Washington, D.C. Retrieved from https://digitalcommons.calpoly.edu/cgi/viewcontent.cgi?article=1692&context=bts
7. Miszczyński, D. (2019). Justice for animals according to Plutarch. *Mare Nostrum*, 5, 53–72. Retrieved from https://revistas.usp.br/marenostrum/article/view/150410
8. Cottingham, J. (1978). A brute to the brutes? Descartes' treatment of animals. *Philosophy*, *53*(206), 551–559. https://doi.org/10.1017/S0031819100026371
9. Alexander, R. (2024). Peter Singer'ın yaklaşımına göre türcülük nedir? *Öncül Analitik Felsefe Dergisi*, 10, 1–20. Erişim adresi: https://onculanalitikfelsefe.com/peter-singerin-yaklasimina-gore-turculuk-nedir-ryan-alexander/
10. Korsgaard, C. M. (2020). The place of animals in Kantian ethics. *Biology & Philosophy*, *35*(8), 1–11. https://doi.org/10.1007/s10539-019-9712-0
11. Bentham, J. (1789/2017). *An Introduction to the Principles of Morals and Legislation* (J. Bennett, Ed.). Retrieved from https://www.earlymoderntexts.com/assets/pdfs/bentham1789.pdf
12. Norcross, A. (2004). Puppies, pigs, and people: Eating meat and marginal cases. *Philosophical Perspectives*, *18*(1), 229–245. https://doi.org/10.1111/j.1520-8583.2004.00027
13. Tanner, J. K. (2009). The argument from marginal cases and the slippery slope objection. *Environmental Values*, *18*(1), 51–66.
14. Rachels, J. (1990). *Created from animals: The moral implications of Darwinism*. Oxford University Press.
15. Villanueva, G. (2017). Against Animal Liberation? Peter Singer and His Critics. *Sophia: International Journal of Philosophy and Traditions*, *57*(1), 5–19. https://doi.org/10.1007/s11841-017-0597-6
16. Singer, P. (2009). Speciesism and moral status. *Metaphilosophy*, *40*(3–4), 567–581. https://doi.org/10.1111/j.1467-9973.2009.01608.x
17. Regan, T. (1986). The case for animal rights. In M. W. Fox & L. D. Mickley (Eds.), *Advances in Animal Welfare Science 1986/87* (pp. 179–189). The Humane Society of the United States. Retrieved from WellBeing International Studies Repository.
18. Misselbrook, D. (2013, April). Duty, Kant, and Deontology. *British Journal of General Practice*, *63*(609), 211. https://doi.org/10.3399/bjgp13X665422
19. Kemmerer, L. (2006). *In Search of Consistency: Ethics and Animals*. Leiden & Boston: Brill.

**20.** Coghlan, S. (2023, June 12). Peter Singer’s fresh take on *Animal Liberation* – a book that changed the world, but not enough. *The Conversation*. Retrieved from https://theconversation.com/peter-singers-fresh-take-on-animal-liberation-a-book-that-changed-the-world-but-not-enough-205830

**21.** DeGrazia, D. (1999). Animal ethics around the turn of the twenty-first century. *Journal of Agricultural and Environmental Ethics*, *11*(2), 111–129. https://doi.org/10.1023/A:1009504617295

**22.** Horta, O. (2010). What is speciesism? *Journal of Agricultural and Environmental Ethics*, *23*(3), 243–266.

**23.** Birch, J. (2020). The place of animals in Kantian ethics. *Biology & Philosophy*, *35*(8), 8. https://doi.org/10.1007/s10539-019-9712-0

**24.** Çekem, K. (2023). Faydacılığın ve deontolojinin ötesinde: Hayvan etiği için ihtimam-temelli bir çerçeve. *Kaygı: Bursa Uludağ Üniversitesi Fen-Edebiyat Fakültesi Felsefe Dergisi*, *22*(1), 460–497. https://doi.org/10.20981/kaygi.1195821

## REFERENCES

**1.** Singer, P. (1975). *Animal Liberation* [Animal Liberation, trans. Hayrullah Dogan, 2018]. Istanbul: Ayrinti Publishing. (in Turkish)

**2.** Regan, T. (1983). *The Case for Animal Rights*. University of California Press. (in English)

**3.** Rollin, B. E. (2006). The regulation of animal research and the emergence of animal ethics: A conceptual history. *Theoretical Medicine and Bioethics*, *27*(4), 285–304. https://doi.org/10.1007/s11017-006-9007-8 (in English)

**4.** Singer, P. (1993). *Practical Ethics* (2nd ed.). Cambridge University Press. (in English)

**5.** Francione, G. L. (1995). *Animals, Property, and the Law*. Temple University Press. (in English)

**6.** Barad, J. (1988). Aquinas's inconsistency on the nature and treatment of animals. Presented at the American Philosophical Association Eastern Division 85th Annual Meeting, Washington, D.C. Retrieved from https://digitalcommons.calpoly.edu/cgi/viewcontent.cgi?article=1692&context=bts (in English)

**7.** Miszczynski, D. (2019). Justice for animals according to Plutarch. *Mare Nostrum*, 5, 53–72. Retrieved from https://revistas.usp.br/marenostrum/article/view/150410 (in English)

**8.** Cottingham, J. (1978). A brute to the brutes? Descartes' treatment of animals. *Philosophy*, *53*(206), 551–559. https://doi.org/10.1017/S0031819100026371 (in English)

**9.** Alexander, R. (2024). What is speciesism according to Peter Singer's approach? *Oncul Analytic Philosophy Journal*, 10, 1–20. Retrieved from https://onculanalitikfelsefe.com/peter-singerin-yaklasimina-gore-turculuk-nedir-ryan-alexander/ (in Turkish)

**10.** Korsgaard, C. M. (2020). The place of animals in Kantian ethics. *Biology & Philosophy*, *35*(8), 1–11. https://doi.org/10.1007/s10539-019-9712-0 (in English)

**11.** Bentham, J. (1789/2017). *An Introduction to the Principles of Morals and Legislation* (J. Bennett, Ed.). Retrieved from https://www.earlymoderntexts.com/assets/pdfs/bentham1789.pdf (in English)

**12.** Norcross, A. (2004). Puppies, pigs, and people: Eating meat and marginal cases. *Philosophical Perspectives*, *18*(1), 229–245. https://doi.org/10.1111/j.1520-8583.2004.00027 (in English)

**13.** Tanner, J. K. (2009). The argument from marginal cases and the slippery slope objection. *Environmental Values*, *18*(1), 51–66. (in English)

**14.** Rachels, J. (1990). *Created from Animals: The Moral Implications of Darwinism*. Oxford University Press. (in English)

**15.** Villanueva, G. (2017). Against Animal Liberation? Peter Singer and His Critics. *Sophia: International Journal of Philosophy and Traditions*, *57*(1), 5–19. https://doi.org/10.1007/s11841-017-0597-6 (in English)

**16.** Singer, P. (2009). Speciesism and moral status. *Metaphilosophy*, *40*(3–4), 567–581. https://doi.org/10.1111/j.1467-9973.2009.01608.x (in English)

**17.** Regan, T. (1986). The case for animal rights. In M. W. Fox & L. D. Mickley (Eds.), *Advances in Animal Welfare Science 1986/87* (pp. 179–189). The Humane Society of the United States. Retrieved from WellBeing International Studies Repository. (in English)

**18.** Misselbrook, D. (2013, April). Duty, Kant, and deontology. *British Journal of General Practice*, *63*(609), 211. https://doi.org/10.3399/bjgp13X665422 (in English)

**19.** Kemmerer, L. (2006). *In Search of Consistency: Ethics and Animals*. Leiden & Boston: Brill. (in English)

**20.** Coghlan, S. (2023, June 12). Peter Singer's fresh take on *Animal Liberation* – a book that changed the world, but not enough. *The Conversation*. Retrieved from https://theconversation.com/peter-singers-fresh-take-on-animal-liberation-a-book-that-changed-the-world-but-not-enough-205830 (in English)

**21.** DeGrazia, D. (1999). Animal ethics around the turn of the twenty-first century. *Journal of Agricultural and Environmental Ethics*, *11*(2), 111–129. https://doi.org/10.1023/A:1009504617295 (in English)

**22.** Horta, O. (2010). What is speciesism? *Journal of Agricultural and Environmental Ethics*, *23*(3), 243–266. (in English)
**23.** Birch, J. (2020). The place of animals in Kantian ethics. *Biology & Philosophy*, *35*(8), Article 8. https://doi.org/10.1007/s10539-019-9712-0 (in English)
**24.** Cekem, K. (2023). Beyond utilitarianism and deontology: A care-based framework for animal ethics. *Kaygi: Bursa Uludag University Faculty of Arts and Sciences Journal of Philosophy*, *22*(1), 460–497. https://doi.org/10.20981/kaygi.1195821 (in Turkish)